Xalq qəzeti .- 2024.- 1 may, № 88.- S.12.

# Cabbarlı Firəngizinin canlı təcəssümü

**"Aslan Qəhrəmanovun "Səni axtarıram" teletamaşasının nümayişindən sonra küçəyə çıxa bilmirdim. Atam rəhmətlik deyirdi ki, axşam yatanda Bəhər müəllim idim, Firəngiz adında qızım vardı, səhər oyandım oldum Firəngiz Mütəllimovanın atası Bəhər müəllim. Populyarlıq yaxşıdır, amma insanlardan uzaqlaşırsan, həyatdan təcrid olursan. Hətta səninlə evlənmək istəyənlər də yaxın durmurlar ki, bizi bəyənməz".**




Bu fikirləri bizimlə bölüşəndə onun 60 yaşı vardı. İndi 65-ni qeyd edir. Qeyd edir deyəndə ki, o, ad günləri keçirməyi xoşlamır. "Sadəcə, yaş üstünə daha bir yaş gəlir, ömürdən bir il də gedir",– deyir. Amma illər insanı təkcə yaşlandırmır, həm də təcrübəsini artırır, kamilləşdirir. Hətta bir il əvvəl dediyi fikri dəyişdirməyə sövq edə bilir. Qəhrəmanımız da sevimli obrazının onun taleyində oynadığı rol barədə fikrini dəyişib. Amma bu barədə sonda yazacağıq. Hələlik onun bugünə qədərki həyat və sənət yolunu vərəqləməyə çalışaq... Beləliklə, həmsöhbətimiz bu gün 65 yaşı tamam olan Xalq artisti, Prezident təqaüdçüsü Firəngiz Mütəllimovadır.

1959-cu il aprelin 3-də Şuşaya lopa-lopa qar yağanda Bəhər müəllimin evində bir körpə dünyaya gəlir. Atası qız balasının ad günü bayrama düşsün deyə, onun doğum tarixini 1 maya yazdırır.

"Atamla anam hər ikisi müəllim idi. Biz hər il mayın 1-də ailəlikcə nümayişə gedərdik. Yadımdadır, onda Şuşanın qarı hələ yavaş-yavaş əriməyə başlayardı".



Cəfər Cabbarlının əsərlərini çox sevən Bəhər müəllim qız övladının "Od gəlini" əsərinin qəhrəmanının adı ilə Firəngiz adlandırır. Firəngiz ailənin ilki idi, ondan sonra iki qardaşı olub. Hər ikisi dünyasını dəyişib. Bacıları İlhamə ilə Nərgiz sonradan, Firəngizlə qardaşı universitetdə oxuyanda doğulublar.

## "Atam yenə şən idi, anam isə ağlayırdı"

Ailənin böyük övladı orta məktəbi Şuşada bitirib. Evdəkilərə deyəndə ki, aktrisa olacaq, atası gülüb, anası isə ağlayıb: "Atam dedi, dəymə, utancaq qızdır, ondan artist olmaz, qəbul olunmayıb qayıdacaq evə. Gələn il biz deyən instituta qəbul olunar. Mən də, şükür Tanrının kəramətinə, qəbul olundum. Atam yenə şən idi, anam isə elə hey ağlayırdı".

Mədəniyyət və İncəsənət Universitetinə qəbul imtahanını ondan Adil İsgəndərovla Mehdi Məmmədov götürüblər. Rza Təhmasibin kursuna düşüb, amma altı ay sonra ustad rəhmətə gedib. Onlara Böyükağa Kazımov dərs deyib. Son kursa qədər Firəngizi aktrisa kimi qəbul etməyib, deyib ki, gəl səni keçirək başqa ixtisasa. Razılaşmayıb. "Aktrisa olmaq arzumun qarşısına heç nə əngəl ola bilməz", – deyib.

Kursun diplom tamaşasına baxan Akademik Dram Teatrının baş rejissoru Tofiq Kazımov Zemfira Nərimanova, Bəsti Cəfərova, İlham Əsgərov, Saleh Babayev və Firəngiz Mütəllimovanı teatra işə götürür. Sabit Rəhmanın "Əliqulu evlənir" tamaşasında Qumral obrazı Firəngizin səhnədə ilk performansıdır. Qısa müddətdə Akademik Milli Dram Teatrının səhnəsində Gözəl ("Qılınc və qələm", M.S. Ordubadi), Qumral ("Əliqulu evlənir", S. Rəhman), Bəyim ("Xurşidbanu Natəvan", İlyas Əfəndiyev), Aynur ("Büllur sarayda", İ.Əfəndiyev), Mələk ("Bizim qəribə taleyimiz", İ. Əfəndiyev), Gülnaz ("Mahnı dağlarda qaldı", İ. Əfəndiyev) kimi obrazlara imzasını atıb.

Bu obrazların hər biri tamaşaçının yaddaşında qalıb. "Qanlı Nigar"dakı Nədidə isə onun teatr səhnəsindəki rollarının vizit kartı sayılır. Arvad ("Mənim ərim dəlidir", Elçin), Gülzar ("Poçt şöbəsində xəyal", Elçin), Sevər ("Bu dünyanın adamları", H.Orucov), Həvva ("Varlı qadın" Ə. Əmirli), Raisa ("Mesenat", Ə. Əmirli), Kərbəlayi Fatmanisə ("Almaz", C. Cabbarlı) obrazları aktrisanın teatr yaradıcılığının ikinci dövrünə aiddir.

Kərbəlayi Fatmanisənin üzərində xüsusi dayanmaq istərdim. Çünki C. Cabbarlının əsərlərində oynamaq onun ən böyük arzusu olub.

## "60 yaşımda arzuma qovuşdum"

"Orta məktəbdə Cəfər Cabbarlı ilə İlyas Əfəndiyevin əsərlərini çox oxumuşam. Hamı bilirdi ki, aktrisa olmaq istəyirəm, amma nədənsə müəllimlərim rol bölgüsündə Almazı həkim olmaq istəyən başqa bir qıza verirdilər. İnstitutun 3-cü kursunda oxuyanda Zəminə xanımla Fuad Hacıyev məni gətirdilər Azdramada oynanılan "Sevil" tamaşasına ki, yeni sima gəlsin səhnəyə. Öz müəllimim Böyükağa Kazımov bunu eşidib əsəbiləşdi, qalmaqal yaratdı. Alınmadı, ancaq bu olayın bir xeyri oldu ki, Tofiq Kazımov məni gördü, yadında qaldım. Ağakişi Kazımov televiziyada "Solğun çiçəklər"i tamaşaya qoyanda hamı dedi ki, Sara roluna gərək Firəngizi çəkəydin. Ağakişi müəllim teatrda "Solğun çiçəklər"i hazırladı və Saranı verdi mənə. Altı ay məşq etdik, tamaşanı qəbul etmədilər. Bir dəfə Ələbbas Qədirovla "Oqtay Eloğlu"ndan bir parça oynamışıq".

Nəhayət, Firəngiz Mütəllimova 60 yaşında C.Cabbarlının "Almaz" əsərində Azərpaşa Nemətovun quruluşunda Fatmanisəni canlandırıb. Onun Fatmanisəsi əvvəlki Fatmanisələrdən fərqli idi. Səhnədə tamaşaçı alışdığı qəlyan çəkən, belibükük Fatmanisəni deyil, lazımı məqamlarda yaşına xas olmayan çeviklik göstərən, hər vəziyyətə "tfu" deyə reaksiya verən yeni Fatmanisəni gördü.

"Məndən çox soruşdular ki, niyə Fatmanisə rolunu oynamağa razı oldun? Dedim ki, hər dövrün öz hökmü olur, bu yaşımda Almaz oynayası deyiləm. 60 yaşında gənc qızları canlandıran aktrisalarımız olub, bugünün tamaşaçısı onu qəbul etməz. Nə qədər formada olsa da, hər yaşın öz obrazı var. Yolu açmaq lazımdır, səhnəyə gənclər gəlsin, biz sağ ikən onlar yetişsin. Fatmanisə indiyə qədər oynadığım rollardan çox fərqli xarakterdir".

Firəngiz Mütəllimovanın canlandırdığı maraqlı qadın obrazlarından biri də "Bizim qəribə taleyimiz" tamaşasındakı narkoman Mila obrazıdır:

"Bu obraz sənət taleyimdə bir dönüş oldu. Gülnardan sonra hansı tamaşada oynayırdımsa, tamaşaçı Gülnara baxmağa gəlirdi. Məlahət–Mila obrazı yaxşıdır, pisdir, niyə həyatı belə olub, tamaşada açılmamışdı. İlyas müəllimə dedim ki, Milaya bir monoloq yazın ki, orda bunun acı taleyi açılsın. Yəni heç kim anadan narkoman, oğru doğulmur, onu bu yola salan həyatdır. Allah rəhmət eləsin, İlyas müəllim yazdı. O monoloq bütün tamaşanı tamamladı. Tamaşa ilə Türkiyəni qarış-qarış gəzdik, Almaniyada olduq. Mila obrazı sənət taleyimdə dönüş etdi".

## "At çapa bilmədiyim üçün Həcəri oynaya bilmədim"

Azərbaycan Dövlət Televiziyasında hazırlanmış iyirmidən çox teletamaşada müxtəlif səpkili rollar ifa edən Firəngiz Mütəllimovanın, şübhəsiz ki, ən böyük obrazı Aslan Qəhrəmanovun "Səni axtarıram", "Bağışla", "Səndən xəbərsiz" tamaşalarındakı Gülnarıdır. Aktrisa onun ardınca Mərcan ("Evləri köndələn yar"), Ana və qız ("Unutmaq olmur"), Nazan ("Yad qızı"), Almaz ("Topal Teymur"), Gülər ("Göz həkimi") və s. rollar yaradıb.

"Xoşbəxtəm ki, televiziyanın "Qızıl fondu"nda ən çox tamaşası olan artistəm".

Aktrisanın kino qalareyasını o qədər də zəngin hesab etmək olmaz. O, bunu teatrda çox məşğul olması ilə bağlayır. Deyir, səhər teatra girib axşam çıxırdım. Həmin dövrdə Firəngiz xanımın teatr rollarına nəzər yetirəndə fakt öz təsdiqini tapır.

O, bəzən də dəvət olunduğu filmlərdə məyusluqla rastlaşıb. Sınaqlardan keçməyib.

"Nəhayət, Ceyhun Mirzəyevlə Vaqif Mustafayev iki filmdə çəkdilər məni – "Bəyin oğurlanması" və "İşarəni dənizdən gözləyin"də. Elxan Qasımovun "Qocalar, qocalar"ında da rol aldım. "Qaçaq Nəbi"də kiçik rolum olub. Həsən Turabov məni Həcər obrazına çəkmək istəyirdi. Mən at minə bilmədim, yəhərdə əsim-əsim əsirdim. Hamı güldü, Turabov tərəfimi tuturdu ki, öyrənəcək. Öyrənə bilmədim. "Sizi dünyalar qədər sevirdim" filmində Həzi Aslanovun həyat yoldaşını oynamağa dəvət etdilər. O qədər incimişdim ki, bu dəfə özüm getmədim.

Şamil Nəcəfzadə "Qala" filminə məni sınaq çəkilişi etmədən çəkdi. Obraz məxsusi mənim üçün yazılmışdı".

## "Həyatdakı rolum"

**Kinoda, teatrda, teletamaşalardakı rollarından bəhs etdik. Bir də insanın şəxsi həyatdakı rolundan danışdıq:**

"Çox gənc yaşlarımdan elə həyat hadisələri ilə rastlaşdım ki, hamıya inamım qırıldı, aldanmaqdan qorxdum. Xüsusən oğlanlara inana bilmədim, ona görə də sevə bilmədim. 33 yaşımda İngiltərə vətəndaşlığı olan azərbaycanlı ilə tanış oldum. "Yad qızı"ndan Nazan kimi tanıdığı üçün diqqətini çəkmişdim. Elə bir dövr idi ki, ölkədə müharibə gedirdi, ailəm məcburi köçkün düşmüşdü. Atam ağır xəstə idi. O, yeganə adam oldu ki, cəsarətlə keçdi ata-anamın qarşısına, dedi ki, sizin qızınızla ailə qurmaq istəyirəm. O vaxta qədər heç kim belə irəli durmamışdı. Elə adamlar elçi gəlirdi ki, onları da mən istəmirdim. Bunun o cəsarəti xoşuma gəldi, yoxsa dərdindən dəli-divanə olub getməmişdim. Hətta bəhanə edib Almaniyaya qastrola getdim ki, gəlib görüm gözləyib, yoxsa gedib. Getməmişdi, gözləmişdi. Teatrda "Otello" tamaşaya qoyulurdu, Dezdemona oynayacaqdım. Mikayıl Mirzə də Otellonu oynamalı idi. Hər şeyi atıb, qoşulub ona getdim. Ən xoş günlərim onunla oldu, üzüm güldü, həyatın bütün ağırlıqlarını aldı çiyinlərimdən. Sonra atamın vəziyyəti ağırlaşdı, yollarda qalmışdım, gedirdim İngiltərəyə, gəlirdim Bakıya. O, bura köçmək istəmədi, mən isə orda qala bilmədim. Övladımız olmadı, çıxıb gəldim, ayrıldıq. Qayıtdım teatra, H.Turabov ştatda yerimi saxlamışdı".

"Səni axtarıram" tamaşasından sonra tamaşaçılar Firəngiz xanımla Yaşar Nurinin arasında sevgi münasibəti olduğunu deyirdilər.

"Yaşar Nurini tamaşadan əvvəl institutdan tanıyırdım. O, müəllim idi, mən tələbə. Həmişə dəhlizdə məni görəndə eyni sualı verərdi: "Sən Ofeliya Sənaninin qohumusan?" Bir də deyirdi: "Yenə gülür" və özü də gülürdü. Elə o gülüşə görə də "Səni axtarıram" tamaşasına dəvət olundum. Tamaşanın rejissoru Tariyel Vəliyev deyəndə ki, Gülnar üçün üzündə əbədi təbəssüm "bitən" bir aktrisa olmalıdır, Yaşar Nuri deyib ki, bizim bir tələbəmiz var, elə hey gülür. Mənim həyatda idealım, xəyalımda yaratdığım, sevə biləcəyim adam tamam başqa idi. Yaşarla ailəvi dost olmuşuq, qastrola gedirdik, ailəsi onu mənə həvalə edirdi ki, yeməyinə, geyiminə nəzarət edim".

## "Arzum Şuşada yaşamaqdır"

"Bacanaqlar" serialından sonra kommersiya filmlərinə getmirəm, çünki hamısı bir-birini təkrarlayır. Mülayim xasiyyətimdən sui-istifadə etmək istəyənlər var, bəzən qəpik-quruşa çəkiləcəyimi düşünürlər, amma elə deyil. Liderliyi sevənəm, özümə qiymət verənəm, adamı da gözünə baxan kimi tanıyıram".

Firəngiz Mütəllimova 12 il pedaqoji fəaliyyətlə məşğul olub. ADMİU-də 3 kurs yetişdirib. Səhhətində yaranan problemlə bağlı işdən çıxmalı olub. Uzun sürən müalicədən, əməliyyatlardan sonra həyata qayıdan aktrisaya indi sakit, rahat həyat sürmək lazım idi. "Teatrda Bədii Şuranın üzvüyəm, bütün yeni tamaşalara baxıb rəy verirəm. Dövlət tədbirlərində iştirak edirəm. Prezident təqaüdü alıram".

Firəngiz xanımla 60 yaşının astanasında söhbət edəndə demişdi ki, Tanrıdan bircə istəyi var: "Bircə dəfə Şuşanın havasını ciyərlərimə çəkmək qismətim olsun".

İndi isə dedi: 30 il ən böyük arzum Şuşaya qovuşmaq idi, çox şükür qovuşdum. İndi gedib-gəlirəm evimizə, Şuşa mənim ruhumdur. Ora gedəndə özümü 15 yaşımdakı kimi hiss edirəm. İndi də ən böyük arzum Şuşada yaşamaqdır".

Sonda soruşduq: –Yaradıcılığınızın və həyatınızın ana xəttini təşkil edən Gülnar obrazı barədə müxtəlif illərdə fərqli fikirlər söyləmisiniz. Bəzən onu günahlandırmısınız, bəzən sevmisiniz, bəzən də qınamısınız. Bir gün qarşınıza çıxsa, ona nə deyərdiniz?

– Sakitcə üzünə baxardım, heç nə deməzdim. Gülnar mənim alın yazım idi. Nə yaxşı ki, belə alın yazım olub. Gülnar mənim əkiz tayımdır, elə bilirdim, xarakterlərimiz fərqlidir. İllər keçdikcə görürəm onunla bənzərik...

***Ramilə QURBANLI***
***XQ***